UOT 32:93/94

MƏHƏBBƏT SEYİDOVA
Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının doktorantı
https://orcid.org/0009-0000-1094-8477
mahabbatseyidova78@gmail.com

BEYNƏLXALQ MÜNAQSİBƏTLƏRDƏ DÖVLƏT VƏ İNSAN TƏHLÜKƏSİZLİYİNİN QARŞILIQLI ƏLAQƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/168-175

Beynəlxalq münasibətlərdə təhlükəsizlik məsələsi bugünki dünyamızda üzləşdiyimiz qlobal məsələlərin birləşdirici komponenti kimi çıxış edir və məhz buna görə beynəlxalq münasibətlərdə mərkəzi mövzu olaraq qalır. Bu həmçinin min illər boyu düşüncələrə hakim kəsilən bir konsepsiyadır. Təhlükəsizliyin fərdi və ya dövlət səviyyəsində qorunub təmin olunması əsas müzakirə mövzusu olaraq qalır. Bununla bağlı təhlükəsizliyi kim və ya nə təmin etməlidir sualı meydana çıxır. Misal üçün, təhlükəsizliyin təmin ediməsi dövlət tərəfindən həyata keçirilməlidir yoxsa bu səlahiyyət tamamilə və ya qismən beynəlxalq təşkilatlara keçməlidir? Bəşəriyyət üçün təhlükəsizliyin nə qədər vacib olduğunu qədim dövrdə insanların kollektiv yaşamasından anlamaq olar. Birgə yaşayış kollektivin bir-birindən və qrup daxilində qorunması zərurətini yaradırdı. Bu səbəbdən təhlükəsizliyə sosial anlayış kimi də baxıla bilər. Ənənəvi olaraq, beynəlxalq münasibətlər qlobal sistemdə kimin və ya nəyin təhlükəsiz olması sualına dövlət təhlükəsizliyini vurğulayır. Bu, geniş mənada "milli təhlükəsizlik" adlanır.

Ənənəvi nəzəriyyələrdə təhlükəsizlik anlayışı dar çərçivədə - ölkə ərazisinin, dövlət suverenliyinin və milli vəhdətin kənar (informasiya, psixoloji, hərbi, iqtisadi və sair) təcavüzlərdən təhlükəsizliyi və ya beynəlxalq arenada xarici siyasət vasitəsilə milli mənafelərin qorunması kimi müəyyən olunmuşdur. Bu mənada təhlükəsizlik insanlardan çox milli dövlətlərə şamil edilən bir məfhum kimi qəbul edilir. İnsan təhlükəsizliyi ilk növbədə insan hüququdur. Beynəlxalq münasibətlər sistemində təhlükəsizliyin üç əsas paradiqması mövcuddur: milli təhlükəsizlik, beynəlxalq təhlükəsizlik və insan təhlükəsizliyi. İlk iki yanaşma insanların inkişafı üçün zəruri zəmin qismində dövlətə mənəvi üstünlük verir. Dövlətə üstünlük verən iki yanaşmadan fərqli olaraq, təhlükəsizliklə bağlı üçüncü yanaşma mənəvi üstünlüyü insan varlıqlarına və bəşəriyyətə verir və onları mənsub olduğu dövlətlərin və ya beynəlxalq ictimaiyyətin maraqlarından üstün tutur.

Açar sözlər: Milli təhlükəsizlik, beynəlxalq təhlükəsizlik, insan təhlükəsizliyi.

Giriş. Hazırda dünyanın elmi və akademik dairələrində insan təhlükəsizliyi konsepsiyasının sistemləşdirilməsi, habelə bu konsepsiyaya yeni yanaşmalar tapmaq məqsədilə cəhdlər göstərilir. İnsan təhlükəsizliyi konsepsiyası ilə bağlı əsas yanaşmaların sistemləşdirilməsi ilə əlaqədar belə bir qənaətə gəlmək olur ki, bu konsepsiyaya çoxsaylı yanaşmalar mövcuddur, onların sistemləşdirilməsi və dəqiq hüdudların müəyyən edilməsi zərurəti var. Hal-hazırda elmi praktikada insan təhlükəsizliyi ilə bağlı vahid anlayış işlənib hazırlanmayıb və bu da onun geniş şəkildə təfsir olunmasına səbəb olur və praktiki fəaliyyətini çətinləşdirir. Özündə insan, dövlət və beynəlxalq təşkilatları ehtiva edən qlobal inkişafa sistemli baxış lazımdır. Beynəlxalq hüquqda "insan təhlükəsizliyi" anlayışını təsbit etmək, insan təhlükəsizliyinə təsir göstərən bütün əsas təhdidləri və çağırışları aydın şəkildə müəyyən etmək, insan təhlükəsizliyi konsepsiyasının gerçəkləşməsinə səbəb olacaq bütün dövlətlər üçün ümumi standartları təyin etmək vacibdir.

Bu mövzu ilə bağlı soyuq müharibənin sonundan sonra bir çox siyasi liderlər və alimlər fikir söyləmişlər. Bu məqalədə BMT-nin və BMT İnkişaf Proqramının hesabatlarına, BMT-nin keçmiş baş katibləri B.Butros-Qali, Kofi Annan, Pan Gi Mun, ABŞ-nin keçmiş dövlət katibi Henri Kissincerin fikirlərinə toxunulur və mövzu ilə bağlı dünyanın müxtəlif ölkələrində aparılana elmi müzakirələrə diqqət yetirirlir.

Məqalənin məqsədi insan təhlükəsizliyi konsepsiyasına əsas yanaşmaların sistemləşdirilməsidir. Tədqiqatın predmeti insan təhlükəsizliyi konsepsiyasıdır və dövlət təhlükəsizliyi ilə qarşılıqlı əla-

qəsidr. Tədqiqat işində təsviri, tarixi-müqayisəli, analitik tədqiqat metodlarından istifadə edilmişdir. Tətqiqatda sistemli yanaşma, analiz, sintez metodlarına da yer verilmişdir.

1) İnsan təhlükəsizliyi anlayışı. Beynəlxalq leksikonda insan təhlükəsizliyi anlayışı iyirminci əsrin sonlarında meydana gəlmişdir. Buna qədər üç yüz ildən atrıq bir müddət ərzində dövlət təhlükəsizliyi ideyası ümumqəbul olunmuş konsepsiya idi. Dövlətlər öz ərazi bütövlüyünü xarici təhdidlərdən qorumaq hüququna malik idi və hətta məcbur idi və bu məqsədlə xüsusi tədbirlər görülürdü, lakin təhlükəsizlik anlayışı beynəlxalq səviyyədə dövlətin sərhədlərindən kənara çıxmırdı.

"Təhlükəsizlik" anlayışından istifadədə dəyişiklik 1990-cı illərdə baş verdi və beynəlxalq ictimaiyyət yalnız dövlətlərin deyil, həm də insanların təhlükəsizliyinə təhlükə törədən təhdidlərdən qorumaq məqsədilə xüsusi tədbirlərin görülməsinin vacibliyini qeyd etməyə başladılar. Əlbəttə, əvvəllər də "təhlükəsizlik" anlayışı insanlarla münasibətdə də geniş şəkildə istifadə olunurdu, lakin beynəlxalq səviyyədə radikal dəyişiklik 90-cı illərdə baş verdi. İlk dəfə olaraq, əvvəllər hər bir milli dövlətin suveren işi olaraq nəzərdən keçirilən xalqın müdafiəsi potensial olaraq beynəlxalq ictimaiyyətin işinə çevrildi. BMT-nin rəhbərliyi altında dövlətlərin koalisiyasının iştirakıyla təhlükəsizlik məqsədilə görülən kollektiv hərəkətlər dövlətlərin təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, insanların və xalqların təhlükəsizliyini təmin etmək məqsədi daşıyırdı. Əvvəllər humanitar fəlakətlər kateqoriyasına aid edilən hadisələr artıq sülh və təhlükəsizlik kontekstində nəzərdən keçirilirdi. Bütün bunlar beynəlxalq səviyyədə görülən məcburetmə tədbirlərinə haqq qazandırmaq məqsədi güdürdü və ilk nümunə olaraq, Somalidə (1992-1993-cü illər) həyata keçirilən məcburi humanitar yardım proqramını göstərmək olar. Bu zaman BMT Təhlükəsizlik Şurası qeyd etmişdir ki, "insan faciəsinin miqyası beynəlxalq sülhə və təhlükəsizliyə təhdiddir". BMT-nin Somalidə missiyası (UNOSOM) 1992-ci ildə Moqadişoda atəşkəsi müşahidə etmək və humanitar yardımın çatdırılması məqsədilə başlamışdı. İnsan təhlükəsizliyi dedikdə, bura iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, sağlamlığın təhlükəsizliyi, ətraf mühit təhlükəsizliyi,şəxsi təhlükəsizlik, icma və siyasi təhlükəsizliyi daxildir. Soyuq müharibə şəraitində hegemon dövlətlər qlobal ideoloji çəkişmələrdə, müstəqilliyini yeni qazanmış və inkişaf etməkdə olan dövlətlər isə beynəlxalq mühitdə öz suverenliyini və milli varlıqlarını qorumaq üçün çarpışmalarda ikən təhlükəsizliyin məhz dövlət institutuna şamil edilməsi təbii idi. Soyuq müharibənin başa çatması fonunda təhlükəsizliyin fokusu da dəyişməli idi. Adi insanlar üçün təhlükəsizlik xəstəliklərdən, aclıqdan, cinayətkarlıqdan, sosial münaqişələrdən, siyasi repressiyalardan, ekoloji fəlakətlərdən qorunmaq deməkdir. Onları narahat edən məsələlər özləri və ailələri üçün lazımi qədər yemək və geyimin, normal ev şəraitinin, gəlirin, işin olması, yaxınlarının və əzizlərinin firavanlığı və xoşbəxtliyi, cinayətlərdən, zorakılıqdan və işgəncələrdən uzaq olmaq, ədalətin, ləyaqətin və bərabər imkanların təmin edilməsidir. Dövlətin bünövrəsi insanlarla, onların milli razılığı ilə, "ictimai sazişlə" qurulduğundan, təhlükəsizlik konsepsiyasının da həm dövləti (milli təhlükəsizlik), həm də onun insanlarını (insan təhlükəsizliyi) nəzərə alması məntiqlidir. Bu gün təhlükəsizlik dedikdə aşağıdakılar başa düşülməlidir:

- Yalnız ərazinin deyil, insanların təhlükəsizliyi;
- Yalnız millətlərin deyil, fərdlərin təhlükəsizliyi;
- Silah yolu ilə deyil, inkişaf yolu ilə təhlükəsizlik;
- Hamının hər yerdə - evində, işində, küçələrdə, icmada, təbiətdə təhlükəsizliyi.

Dəyişməli olan təsəvvürlər də az deyil: səssizcə öldürən hər bir narkotik, səssizə yayılan hər bir xəstəlik, ətraf mühitin sərhədlərə fikir vermədən çirklənməsi, insan həyatını mənasızcasına məhv edən hər bir terror aktı – bunlar hamısı insan təhlükəsizliyinin universal risklərıdir. Yoxsul adamlar sərhəddə dayandırıla bilər, amma yoxsulluğun acı fəsadları – narkotiklər, QİÇS, çirklənmə, terrorizm, insan həyatına qarşı etinasızlıq heç bir milli sərhəd tanımır, istənilən anda dünyanın hər hansı yerində öz amansız zərbəsini yetirir.

2) Şəxsi və ya dövlət maraqları? Mərkəzində dövlət dayan təhlükəsizlik anlayışından mərkəzində insan dayanan təhlükəsizlik anlayışına keçid bir sıra amillərin təsiri altında baş vermişdir. Bu amillərdən biri şübhəsiz ki "soyuq müharibənin" qurtarması olub, hökumətlərin və insanların əvvəllər gizlin saxladığı maraqların ön plana çıxmasına səbəb oldu. Nəticədə, mülki əhali araslnda çoxsaylı qurbanlara səbəb olan mürəkkəb və şiddətli münaqişələr baş verməyə başladı ki, bu da yeni yanaşmaların axtarılmasına gətirib çıxardı.

Eyni zamanda başqa bir faktor ondan ibarət idi ki, bəzən xalqların müdafiəsi beynəlxalq səviyyədə tədbirlərin görülməsini tələb edirdi. İnsan haqları anlayışının əsasında duran başlıca ideya ondan ibarətdir ki, insan ləyaqətinin müəyyən səviyyədə nə hökumət, nə də insan tərəfindən tapdana bilməz. İnsan haqları üzrə ümumqəbul olunmuş beynəlxalq normaları imzalayan dövlətlər öz hərəkətlərində insanı birinci plana qoymaları ilə razılaşırlar.

İnsan təhlükəsizliyi anlayışının meydana gəlməsini çox vaxt 1992-ci ildə nəşr olunan BMT-nin keçmiş Baş katibi Butros Butros-Qalinin "Sülh gündəliyi" ilə əlaqələndirirlər. Burada belə bir fikir irəli sürülürdü ki, qlobal təhlükəsizlik üçün təhdid təbiəti etibarilə hərbi olmaya da bilər: *"Ozon qatının deşilməsi artıq qoruya bilmədiyi insanlar üçün düşmən ordusundan daha böyük təhlükədir. Quraqlıq və xəstəliklər insanlara müharibə silahlarından daha çox ziyan vura bilərlər"* [1, 15-22].

Buradan belə bir nəticə çıxarmaq olar ki, ekoloji qeyri-sabitlik, yoxsulluq, aclıq və istismar insan təhlükəsizliyi üçün kritik problemlər olmaqla yanaşı, münaqişələrin həm mənbəyini, həm də nəticəsini təşkil edirlər. İnsan potensialının inkişafı haqqında BMT İnkişaf Proqramının 1994-cü il hesabatı insan təhlükəsizliyi konsepsiyasını daha genişləndirərək bir-biri ilə əlaqəli iki faktoru vurğulamağı təklif etdi. Bu: «Qorxudan azad olmaq" kimi tanınan "gündəlik həyat tərzimizin gözlənilməz və zərərli pozuntulardan qorunması"; "Ehtiyacdan azad olmaq" kimi tanınan "aclıq, xəstəlik, cinayətkarlıq və repressiv aktların daimi təhdidlərindən qorunma [2, 22-31].

Hesabatda bu konsepsiyalar daha ətraflı şəkildə nəzərdən keçirilmiş və insan təhlükəsizliyinin yeddi əsas komponentləri qeyd edilmişdir:

- *İqtisadi təhlükəsizlik* (zəmanətli minimum gəlir);
- *ərzaq təhlükəsizliyi* (ərzaq məhsullarının fiziki və iqtisadi cəhətdən əlçatanlığı);
- *sağlamlıq və təhlükəsizlik* (xəstəliklərdən və yoluxmalardan nisbi azadlıq);
- *ekoloji təhlükəsizlik* (əlçatan təmiz su və təmiz hava, torpağın münbitliyini saxlayan topraqdan istifadə sistemi);
- *şəxsi təhlükəsizlik* (fiziki zorakılıqdan və təhdidlərdən azadlıq);
- *azlıqların təhlükəsizli* (mədəni müxtəlifliyin qorunub saxlanması);
- *siyasi təhlükəsizlik* (əsas insan hüquq və azadlıqların müdafiəsi).

Lakin insan təhlükəsizliyi konsepsiyası bir çox insanların tənqidinə məruz qalmışdır. Bu konsepsiyanı tənqid edənlər hesab edirdilər ki, konsepsiyada daha çox komponentin əks olunması onun siyasi alət kimi istifadə imkanlarını azaldır. "İnsan təhlükəsizliyi naminə tərəfdaşlıq" beynəlxalq hərəkatın təsisçilərindən biri olan Kanadanın xarici işlər və beynəlxalq ticarət nazirliyi daha dar tərif təklif edirdi: "İnsan təhlükəsizliyi insanların həm zorakı, həm də qeyri-zorakı xarakter daşıyan təhdidlərdən qorunmanı bildirir. Bu vəziyyət insan haqlarına, onun təhlükəsizliyinə və hətta həyatına artan təhdidin olmaması ilə xarakterizə olunur... Bu və ya digər məsələnin insan təhlükəsizliyi kontekstində nəzərdən keçirilməsinin məqsədəuyğunluğunu müəyyən etmək üçün insanların təhlükəsizliyinin nə dərəcədə risq altında olduğu müəyyən edilməlidir".

3) İnsan təhlükəsizliyi proqramı. İnsan təhlükəsizliyi ilə bağlı fərqli konsepsiyaların mövcud olmasına baxmayaraq dövlət təhlükəsizliyindən insanların təhlükəsizliyinə daha çox diqqət göstərilir. Bu, insan təhlükəsizliyi konsepsiyasına ən mühüm töhfələrdən biri hesab edilir. Əvvəldə də qeyd etdiyimiz kimi, əsrlər boyu təhlükəsizlik dedikdə ilk növbədə millətin və ya dövlətin təhlükəsizliyi nəzərdə tutulurdu, indi isə insan təhlükəsizliyi konsepsiyası beynəlxalq müzakirələrdə əsas mərkəzdə olur və diqqət yalnız dövlətlərin deyil, insanların da təhlükəsizliyinə də göstərilir.

İnsan təhlükəsizliyi konsepsiyası nəzərdə tutur ki, dövlət öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyə məcburdur. İnsanların təhlükəsizliyinə əsas diqqətin göstərilməsi dövlətin öz vətəndaşlarının müdafiəsinin təmin edilməsində rolunu da artırır. Konsepsiya şəxsiyyətin təhlükəsizliyi ilə dövlət sərhədlərini aşan bir sıra problemlər arasında qarşılıqlı əlaqəni qəbul edir. İnsan təhlükəsizliyinin prinsipləri müasir dünyada insanlar arasında qarşılıqlı əlaqəni vurğulayır və xatırladır ki, bir çox problemlərin "pasportu" yoxdur və siyasi sərhədlər ilə mane olmaq mümkün deyil. Misal üçün, inkişaf etmiş ölkələrdə yaşayan qadınlar və kişilər inkişaf etməkdə olan ölkələrdə mövcud olan yoxsulluqdan özlərini təcrid edə bilməzlər, sərhəd bilməyən miqrasiya prosesləri və xəstəliklər buna sübutdur. İnkişaf etməkdə olan ölkələrdə yaşayn insanların sağlamlığı Şimalda fəaliyyət göstərən müəssi-

sələrin istehsal etdiyi çirklənmələr səbəbindən risq altındadır. Konsepsiya qeyri-hökumət təşkilatların vacib rolunu qəbul edir. Qeyri-hökumət təşkilatların təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən ən uğurlu əməliyyatlardan biri kimi çox vaxt piyadaəleyhinə minalar əleyhinə beynəlxalq kampaniyanı qeyd edirlər. "İctimai təşkilatlar insan təhlükəsizliyi məsələsində daha çox imkanlar və məsuliyyət əldə etməyə çalışırlar. Bir çox hallarda QHT-lər sübut etdilər ki, onlar insan təhlükəsizliyi ideyalarının təbliğində effektiv tərəfdaşlar ola bilərlər" [2, 22-31]. Konsepsiya insan haqlarının və humanitar huququn pozulmasında təqsirli olanların məsuliyyətə cəlb olunmalarını tələb edir. İnsan təhlükəsizliyi proqramının təşviqində mühüm addımlardan Beynəlxalq cinayət məhkəməsinin yaradılması və keçmiş Yuqoslaviya və Ruanda məsələləri ilə bağlı Beynəlxalq cinayət tribunallarının keçirilməsi hesab olunur.

Konsepsiya təhlükəsizlik probleminin mürəkkəb xarakterə malik olmasını vurğulayır və kompleks cavabların tapılmasına xüsusi diqqət göstərir. İnsan təhlükəsizliyi konsepsiyası ilə bağlı yekdil fikir ondan ibarətdir ki, bu məsələ çoxşaxəli olub, geniş dairələrdə daha böyük koordinasiya və əməkdaşlıq səylərini tələb edir. Problemin həllində bir cavab xüsusilə vurğulanır: beynəlxalq ictimaiyyət "yumşaq güc"ün istifadəsinə hələ də çox ümid edir, yəni hərbi gücə əl atmadan inandırma səylərindən istifadənin vacibliyini vurğulayır [2, 22-31].

4) Dövlət və insan təhlükəsizliyinə müxtəlif yanaşmalar. «The Charter of the United Nations: A Commentary» ("BMT-nin Nizamnaməsi: Şərhlər") adlı kitabın müəllifləri olan Bruno Zimm və digərləri BMT-nin keçmiş baş katibi Kofi Annanın "Daha böyük azadlıq: hamı üçün inkişafa doğru, təhlükəsizliyə və insan haqlarına doğru" adlı hesabatına istinad edərək qeyd edirlər ki, "XXI əsrdə sülh və təhlükəsizlik üçün təhdidlər yalnız beynəlxalq münaqişələri və müharibələri əhatə etmir, həmçinin bura mülki əhaliyə qarşı zorakılıq, mütəşəkkil cinayətkarlıq, terrorizm və kütləvi qırğın silahlarını da daxil etmək olar. Bura həmçinin yoxsulluq, ölümcül infeksiyon xəstəliklər və ətraf mühitin pisləşməsini də daxil etmək olar. Bütün bu təhdidlər insanların ölümünə və ya böyük ərazilərdə onların sağqalma şanslarının azalmasına səbəb ola bilər. Bütün bunlar beynəlxalq sistemin əsas vahidini təşkil edən dövləti sarsıda bilər" [3, 111].

Daha sonra müəlliflər qeyd edirlər ki, "beynəlxalq təhlükəsizlik" anlayışı, öz növbəsində, "beynəlxalq münasibətlərin elə transformasiyasını nəzərdə tutur ki, hər bir dövlət sülhün toxunulmazlığına təminat versin və ya ən azı, sülhün hər hansı pozulması öz nəticələri ilə məhdudlaşsın. Beynəlxalq təhlükəsizlik hər bir dövlətin istənilən müvafiq təhlükəsizlik sistemindən istifadə etmək hüququna malikdir, habelə hər bir dövlətin hüquqi öhdəliyinə bu cür sistemləri dəstəkləmək daxildir". Müəlliflər əlavə edirlər ki, Baş Assambleyanın bəyan etdiyi kimi, "milli və beynəlxalq təhlükəsizlik getdikcə bir-birilə daha da bağlanır, bu da öz növbəsində beynəlxalq təhlükəziklik probleminə dövlətlərin əməkdaşlığa əsaslanan hərtərəfli yanaşmasını tələb edir" [3, 111].

Müəlliflər qeyd edirlər: "Beynəlxalq təhlükəsizlik konsepsiyası ənənəvi olaraq, ilk növbədə dövlət təhlükəsizliyinin problemlərindən biri olaraq nəzərdən keçirilirdi. Lakin son illər meydana gələn insan təhlükəsizliyi konsepsiyası qəbul edir ki, təhdidlər yalnıq dövlət və qeyri-dövlət subyektlərdən irəli gəlmir, həm də dövlətlərin və xalqların təhlükəsizliyinə qarşı yönələ bilər". Daha sonra müəlliflər vurğulayırlar ki, "beynəlxalq təhlükəsizliyin təmini üzrə səylər müxtəlif siyasi addımlar və tədbirlər formasını ala bilər və onlardan ikisi BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndində qeyd edilib: kollektiv təhlükəsizlik tədbirlərin görülməsi, həmçinin beynəlxalq mübahisələrin tənzimlənməsi və ya həlli... Beynəlxalq sülh və təhlükəsizlik üçün təhdidlər yalnız təcavüzkarlıq aktları nəticəsində deyil, həm də istənilən başqa təhdid nəticəsində meydana gələ bilər" [3,111].

Beynəlxalq təhlükəsizlik üçün dəyişən təhdidlər beynəlxalq hüquqi nizamın gələcəyi üçün hansı əhəmiyyətə malikdir? London Kral Kollecinin Siyasət İnstitutunun professoru Nik Blatter bu məsələləri 20 oktyabr 2015-ci ildə "Financial Times" qəzetində nəşr olunan «Action on Climate Change Is Self-defence Not Altruism» («İqlim dəyişikliyi ilə mübarizə tədbirləri: altruzim deyil, özünü müdafiədir») adlı məqaləsində nəzərdən keçirir. O qeyd edir ki, 2015-ci ilin oktyabrın ortalarında Paris Hərbi məktəbində Fransa Senatı və Müdafiə nazirliyinin birgə təşkil etdiyi seminarda bu ölkənin hərbi və mülki rəhbərləri iqlim dəyişikliyilə bağlı risqləri və bunun müdafiə və təhlükəsizlik sahələrinə olan təsirini müzakirə etmişdilər. Bu risqlərin çoxu yaxşı məlumdur: bir tərəfdən, bəzi regionların səhralaşması, məhsuldarlığın azalmasına və ərzaq defisitinə səbəb olan su çatışmazlığı, digər tərəfdən, sel və daşqınların artması, hava tem-

puraturunda qəfil dəyişikliklər, habelə suyun çirklənməsi səbəbindən xəstəliklərin və epidemiyaların yayılma risqi [4, 2].

Bu məqalədə qeyd edildiyi kimi, iqlim "dəyişikliyi" termini onilliklər ərzində havanın temperaturunun tədricən və 2 dərəcə Selsi xətti artımını nəzərdə tutur. Lakin iqlimin "qeyri-sabitliyini", yəni bu və ya digər tərəfdə qəfil atlamarı nəzərdə tutan ssenarilər daha realdır. Bununla əlaqədar Fransada "ekoloji təhdidlərdən müdaifə" adlandırılan tədbirlərin görülməsi ehtiyacı yaranır. Dəyişən iqlim əhalinin daha fəal miqrasiyasına səbəb olacaq. Qlobal səyahətlər və ticarət dövründə epidemiyaların sürətlə yayılması baş verə bilər. "Bu cür şərtlər altında yaranan problemlərin kökündən həlli məqsədilə fəal səylər olmadan milli və Avropa təhlükəsizliyini necə qoruyub saxlamağı təsəvvür etmək belə çətindir. Bu o deməkdir ki, Avropa dövlətlərinə, o cümlədən başqa regionların ölkələrində zəruri kadr ehtiyatlarını axtarmaq və bu problemlərin həllini təmin edəcək inkişaf proseslərinə ciddi invesitiya qoyuluşları etmək lazım gələcəkdir, habelə yerli əhalinin miqrasiya deyil, öz əvvəlki yerlərində qalmaları üçün stimullar yaradılmalıdır" [4,3]. Blatter hesab edir ki, fransızlar " iqlim dəyişikliyi ilə bağlı problemləri enerji siyasətinin və ətraf mühitin mühafizəsi məsələsi deyil, müdafiə və təhlükəsizlik məsələrinin mühüm problemləri qismində baxmaqda haqlıdırlar" [4, 3].

5) Beynəlxalq təhlükəsizliyin gələcək problemləri. Böyük Britaniya Krallığının astronomu Martin Ris "Financial Times" qəzetində nəşr olunan «Scientists and Politicians Alike Must Rally to Protect Life on Earth» («Yerdə həyatı qoruyub saxlamaq üçün alimlər və siyasətçilər birləşməlidir" adlı məqaləsində xəbərdarlıq edirdi: "İstilik stressi hava kondisioneri olmayanlara böyük zərbə vuracaq, məhsul çatışmazlığı artıq bu gün ərzaq məhsullarını çətinliklə alanlara böyük ziyan vuracaq, ekstremal hava şəraiti evləri pis qorunanlar üçün böyük təhlükələr yaradacaq... İqlim dəyişikliyi bioloji müxtəlifliyin katastrofik şəkildə azalmasına səbəb olur. Biz oxumadan həyat kitabımızı məhv edirik. Müdrik siyasət işləyib hazırlamaq məqsədilə bizə alimlərin, iqtisadçıların və texniki mütəxəssislərin daha geniş səyləri, habelə yalnız XXI əsrin təklif edə biləcəyi daha keyfiyyətli bilgilər lazımdır. Lakin bu cür siyasətin uğurla həyata keçməsi üçün bizə siyasi liderlərin tam fədakarlığı və seçicilərin qeyd-şərtsiz dəstəyi gərəkdir..." [5, 4-5].

2 fevral 2011-ci il tarixində BMT-nin o zamankı Baş katibi Pan Gi Mun Oksford Universitetində Siril Fosterin xatirəsinə həsr olunan tədbirdə "XXI əsrdə insanların müdafiəsi və Birləşmiş Millətlər Təşkilatı" adlı mühazirəsində qeyd edirdi ki, BMT-nin əsasını qoyanlar anlayırdılar ki, suverenlik öhdəliklər qoyur, xüsusilə insanların ehtiyaclardan, müharibələrdən və repressiyalardan qorumaq üçün öhdəliklər qoyur. Bu öhdəliklər yerinə yetirilmədikdə insanların müdafiəsi məqsədilə tədbirlərin görülməsi öhdəliyini nəzərdən keçirmək beynəlxalq ictimaiyyətin mənəvi borcudur" [6, 13-17]. O qəbul edirdi ki, "insanların müdafiəsinin təmini ilə bağlı vəzifə sadə və asan deyil. Biz hər zaman müvəffəq olmuruq. Lakin biz yenidən və yenidən müsbət irəliləyişlər əldə etməliyik. Bu bizim fərdi və kollektiv təhlükəsizliyimizdir. Mənim (Baş katib olaraq) kimi adamlar və dünya liderləri insanları müdafiə etmək üçün mənəvi və siyasi öhdəlik daşıyırlar. Qarşımızda duran problemlərin xarakteri dəyişib, lakin beynəlxalq sülh və təhlükəsizliyin qorunması ilə bağlı bizim başlıca vəzifəmiz dəyişilməz qalıb. Nizamnamənin verdiyi siyasi alətlərdən və imkanlardan istifadə edərək biz yavaş, lakin doğru addımlar atmağa çalışırıq. Bu kontekstdə insanların müdafiəsi konsepsiyasının praktiki reallaşmasını təmin etmək zərurəti yaranıb. Şübhəsiz olaraq, BMT insanların müdafiəsi ilə öz öhdəliklərini daha effektiv şəkildə yerinə yetirməlidir...Ən yaxşı müdafiə forması – qabaqlayıcı tədbirlərdir. Qabaqlayıcı tədbirlər insanların həyatını qorumaqla yanaşı, resursları saxlamaq imkanı verir" [6, 15].

Pan Gi Mun qeyd edirdi ki, "Müdafiə ilə birbaşa bağlı vəzifələrlə yanaşı, BMTartan zəiflik halları ilə bağlı tədbirlər görməyə çalışır. Artan zəifliklər əhali üçün təhlükə yaradır və cəmiyyəti zəiflədir, habelə zorakılıq və münaqişələrə səbəb olan su çatışmazlığı, qida təhlükəsizliyi, korrupsiya, transmilli cinayətkarlıq və iqlim dəyişikliyinin nəticələri kimi halların yaranmasına səbəb olur. Bir çox hallarda iqlim dəyişikliyinin səbəb olduğu su çatışmazlığı münaqişələrin mənbəyinə səbəb olur; söhbət çox ciddi regional münaqişələrdən gedir. Ona görə də təəccüblü deyil ki, insan təhlükəsizliyinin bu problemləri sülh quruculuğu sahəsində, xüsusilə Sülh quruculuğü üzrə Komissiyanın gündəliyində öz əksini tapır. BMT qəbul edir ki, insanların müdafiəsi ilə bağlı məsələlər bu təşkilatın məqsəd və prinsipləri arasında mərkəzi yer tutur. İnsanların müdafiəsi ilə bağlı problemlərin öhdəsindən gəlmək üçün BMT yanaşmalarını köklü surətdə dəyişməlidir. Bu, daha böyük cəsarət tələb edir" [6, 17].

Henri Kissincer özünün məşhur "Dünya qaydası" adlı kitabında qeyd edirdi: "Sülhün pozulması halları müəyyən edildikdə bütün dövlətlərin eyni meyarlardan istifadə etmələrini və bu pozuntuların aradan qaldırılması üçün birlikdə hərəkət etmələrini gözləmək tarixi təcrübə ilə öz təsdiqini tapmayıb... Kollektiv təhlükəsizlik mexanizmləri beynəlxalq sülh və təhlükəsizliyə daha ciddi təhdidlər yaradan vəziyyətlərdə öz qeyri-effektivliyini dəfələrlə göstərib" [7, 312]. Daha sonra o belə bir sual verir: "Beynəlxalq qaydanı təşkil edən qaydalar və ya prinsiplər var idimi və yaxud daha kompleks idarəetmə, daha dəqiq desək, hətta bu cür idarəetməni tələb edən potensialın olmağını nəzərdə tutan geosiyasiya qaydanın təməli var idimi? " [7, 314].

Öz düşüncələrində Kissincer beynəlxalq təhlükəsizlik və insanların müdafiəsi probleminin təkamülü ilə bağlı faktorları nəzərə almırdı. Beynəlxalq təhlükəsizliyə hazırki və gələcək təhdidlərin xarakterini, habelə beynəlxalq müdafiə problemlərini nəzərə alaraq, hətta qüdrətli dövlətlər belə BMT tərəfindən səylərin olmasını dəstəkləyəcəklər. Bizə ictimai qaydanın saxlanması sistemində BMT-nin imkanlarından istifadə etmək vacibdir. İngilis alimi İan Braunlay hesab edirdi: "Birləşmiş Millətlər Təşkilatının strukturu ictimai asayişin hərtərəfli sistemini təşkil edir. Çoxtərəfli qərarların qəbuletmə mexanizminin zəif yerlərinə baxmayaraq, BMT gücdən istifadə ilə bağlı monopoliya hüququna malikdir, sülhün pozulması, sülhə təhdid və təcavüzkarlıq aktları ilə əlaqədar məcburetmə xarakterli tədbirlərin görülməsinə görə əsas məsuliyyəti daşıyır. Fərdi üzv-dövlətlər fərdi və ya kollektiv özünümüdafiə hüququna malikdirlər. Regional təşkilatlarla münasibətdə BMT Təhlükəsizlik Şurası müəyyən şərtlər altında məcburi tədbirlərin görülməsi ilə bağlı səlahiyyətlərini müvafiq təşkilatlara ötürür. Məcburetmə tədbirlərinə beynəlxalq birlik adından bu və ya digər dövlətə qarşı gücün tətbiq edilməsi daxildir. Bundan başqa, sülhməramlı əməliyyatların aparılması praktikası da yaranmışdır, o şərtlə ki həmin ənməliyyatların aparılacağı ərazidə mövcüd olan dövlətin razılığı olmalıdır. Son vaxtlar bəzən sülhməramlı fəaliyyətlə bağlı funksiyaların məcburetmə tədbirlər ilə qarışması baş verirdi ki, bu da acınacaqlı nəticələrə səbəb olurdu" [7, 314].

Qloballaşmanın həyatın bütün sahələrinə nüfuz etdiyi hazırki şəraitdə Azərbaycan Respublikasının milli təhlükəsizliyin və onun ayrılmaz tərkib hissəsi olan insan təhlükəsizliyinin təmin edilməsi dövlətin fəaliyyətində prioritet məsələlərdəndir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə və bir sıra beyəlxalq təşkilatların qərarlarına baxmayaraq Azərbaycan 44-günlük müharibə nəticəsində 30 ildən artıq Ermənistan tərəfindən işğal edilmiş torpaqları işğaldan azad etməklə ərazi bütövlüyünü və dövlət təhlükəsizliyini təmin etməklə yanaşı, 30 ildən artıq məcburi köçkün həyatı yaşayan vətəndaşlarının insan təhlükəsizliyini – insan hüquqlarının başlıca prinsipi olan yaşam hüququnu təmin etdi. Ərazi bütövlüyünü təmin etməklə, Azərbaycan dövləti Ermənistanla sərhəddə və işğal dövründə atəşkəs xətti boyunca yaşayan vətəndaşlarının erməni silahlı qüvvələri tərəfindən silah atəşlərinə məruz qalmalarının qarşısını almaqla, vətəndaşlarının yaşayış hüququnu təmin etdi. Post-münaqişə dövründə Azərbaycan işğaldan azad edilmiş torpaqlarda keçmiş məcburi köçkünlərin insan təhlükəsizliyini – onların ev, iş, qida və s. təminatı, quruculuq-abadlıq işləri ilə məşğul olmaqla yanaşı, ermənilər tərəfindən minalardan çirklənmiş torpaqların minalardan təmizlənməsi ilə - insan təhlükəsizliyinin təmin edilməsi ilə məşğuldur.

Nəticə. Beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində BMT kimi bir strukturun son illər işlək olmadığını nəzərə alaraq, hər bir dövlət öz milli təhlükəsizliyini və insanlarının təhlükəsizliyini öz imkanları hesabına təmin etmək məcburiyyətindədir. Azərbaycan dövləti buna çox gözəl nümunədir. Yekun olaraq qeyd edilməlidir ki, dövlət təsisatlarının təhlükəsizliyi və sabitliyi vətəndaşların təhlükəsizliyini təmin edən başlıca təminatçısıdır və insan təhlükəsizliyini tamamlayır. Buna görə də insan təhlükəsizliyi dövlət təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Dövlətin təhlükəsizlik təminatçısı olaraq rolu isə əvəz edilə bilməz.

ƏDƏBİYYAT

1. An agenda for peace: preventive diplomacy, peacemaking and peace-keeping: report of the Secretary-General pursuant to the statement adopted by the Summit Meeting of the Security Council on 31 January 1992 / Boutros Boutros-Ghali. "An Agenda for Peace". International Relations. 11 (3): 201–218. doi:10.1177/004711789201100302.

2. UNDP (United Nations Development Programme) 1994. Human Development Report 1994: New Dimensions of Human Security. New York.
3. Bruno Simma and others, eds., *The Charter of the United Nations: A Commentary*, vol. I., 3d ed. (Oxford, Oxford University Press, 2012).
4. Nick Butler, "Action on climate change is self-defence not altruism", Financial Times, 20 October 2015. Bracken House, London, England.
5. Martin Rees, "Scientists and politicians alike must rally to protect life on Earth", Financial Times, 5 September 2015. Bracken House, London, England
6. Ban Ki-moon, Secretary-General of the United Nations, "Human protection and the 21st century United Nations", Cyril Foster Lecture at Oxford University, Oxford, United Kingdom, 2 February 2011. http://www.un.org/sg/selected-speeches/statement_full.asp?statID=1064.
7. Henry Kissinger. World Order, 2014. Penguin Books, 432 pages. ISBN 978-0241004272.

МАХАББАТ СЕИДОВА
Докторант кафедры международных отношений
Бакинского государственного университета

ВЗАИМОДЕЙСТВИЕ ГОСУДАРСТВЕННОЙ И ЧЕЛОВЕЧЕСКОЙ БЕЗОПАСНОСТИ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

Вопрос безопасности в международных отношениях выступает в качестве объединяющего компонента глобальных проблем, с которыми мы сталкиваемся сегодня в нашем мире, и именно поэтому он остается центральной темой в международных отношениях. Это также концепция, которая доминировала в мыслях на протяжении тысячелетий. Поддерживается ли безопасность на индивидуальном или государственном уровне, остается основной темой дискуссий. В связи с этим возникает вопрос о том, кто или что должно обеспечивать безопасность. Например, должно ли обеспечение безопасности осуществляться государством или эта власть должна быть полностью или частично передана международным организациям? Насколько важна безопасность для человечества, можно понять из коллективной жизни людей в древние времена. Сожительство создало необходимость защиты коллектива друг от друга и внутри группы. По этой причине безопасность также можно рассматривать как социальную концепцию. Традиционно в международных отношениях безопасность государства ставится выше вопроса о том, кто или что находится в безопасности в глобальной системе. Это называется «национальная безопасность» в широком смысле.

В традиционных теориях понятие безопасности узко определяется как безопасность территории страны, государственного суверенитета и национального единства от внешних (информационных, психологических, военных, экономических и т.д.) атак или защита национальных интересов посредством внешнеполитического воздействия на международной арене. В этом смысле безопасность воспринимается как концепция, применимая к национальным государствам, а не к людям. Безопасность человека – это прежде всего право человека. В системе международных отношений выделяются три основные парадигмы безопасности: национальная безопасность, международная безопасность и безопасность человека. Первые два подхода отдают моральный приоритет государству как необходимой основе человеческого развития. В отличие от двух подходов, которые отдают приоритет государству, третий подход к безопасности отдает моральное превосходство человеку и человечности, ставя их выше интересов государств, к которым они принадлежат, или международного сообщества.

Ключевые слова: Национальная безопасность, международная безопасность, безопасность человека.

MAHABBAT SEYIDOVA
Doctoral student of Baku State University
Department of International Relations

INTERACTION OF STATE AND HUMAN SECURITY IN INTERNATIONAL RELATIONS

The security related issues in international relations is a connecting component of today's global problems happening in the world and in this connection it stays as a central topic on international relations. This is a predominant concept existing on the minds throughout the millenials. The providing security on individual and state level stays as a central topic. Regarding this the question related who or what should provide security raises. For instance, whether state should provide security or this authorization should be handed completely or partially to international organizations? The security has been always important to the mankind as since ancient times people lived collectivly. Cohabitation created the need to protect the collective from each other and within the group. Because of this security can be also regarded as a social notion. Traditionally, international relations have emphasized state security over the question of who or what is secure in the global system. This is called "national security" in a broad sense.

In traditional theories the concept of security is narrowly defined as the security of the country's territory, state sovereignty, and national unity from external (informational, psychological, military, economic, etc.) attacks, or the protection of national interests through foreign policy in the international arena. In this sense, security is perceived as a concept that applies to nation-states rather than people. Human security is first and foremost a human right. There are three main paradigms of security in the system of international relations: national security, international security and human security. The first two approaches give moral priority to the state as the necessary ground for human development. In contrast to the two approaches that prioritize the state, the third approach to security gives moral primacy to human beings and humanity, prioritizing them over the interests of states to which they belong or the international community.

Keywords: national security, international security, human security.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyun 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.ü.f.d. Qurban Məmmədov, t.e.d. Sevinc Yusifzadə.